doi.org/10.61764/lasr.2.2024. 117-125

**UOT 39.56.32**

**Saqib Məmmədov**
*Mingəçevir Dövlət Universitet, müəllim*
*saqib_92@mail.ru*

# İQTİSADİYYATIN VƏ İXRACIN ŞAXƏLƏNDİRİLMƏSİNİN DAYANIQLILIĞA ƏSASLANAN ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYATIN YARADILMASINDA ROLU

## *Xülasə*

*Məqalədə makroiqtisadi sabitliyin təmin edilməsi, dayanıqlılığa əsaslanan milli iqtisadiyyatda şaxələnmə prosesinin sürətləndirilməsi, qeyri-neft sektorunun dayanıqlı inkişafı, fiskal, o cümlədən alternativ enerji sektorunun iqtisadi inkişafda rolunun daha da artırılması, ölkədə maliyyə sabitliyinin təmin edilməsi və ümumilikdə rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması istiqamətində təhlillər aparılmışdır. Həmçinin ixracın strukturunun genişləndirilməsi və təkmilləşdirilməsi hesabına ölkəmizin dünyada rəqabət qabiliyyətinin artırılması perspektvilərinə xüsusi diqqət yetirilmiş, beynəlxalq rəqabət imkanlarının artırılmasına yönəldilmiş strategiyanın əsas istiqamətləri araşdırılmışdır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına iqtisadiyyatın digər  sektorlarının inkişaf  imkanları araşdırılmışdır.*

***Məqsəd*** - aparılan tədqiqatın məqsədi dayanıqlı rəqabət mühitinin formalaşması istiqamətlərini aşkar etmək və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi şəraitində rəqabət strategiyasını müəyyənləşdirməkdir. İqtisadiyyatın şaxələndirilmiş inkişafının təmin edilməsi edilməsinin həm dövlət səviyyəsində, həm də şirkətlər üçün böyük önəmə kəsb etdiyini nəzərə alsaq, bunun gələcəkdə dayanıqlı dövlət-özəl tərəfdaşlığı üçün vacibliyi qaçınılmazdır. Digər məqsəd Azərbaycan iqtisadiyyatının sistemli təhlili ilə daxili bazarın potensial rəqabət imkanları nəzərə alınmaqla xarici bazarlara daha geniş çeşidli əmtəələrlə çıxış perspektivləri müəyyən etməkdir. Bunun üçün məqalədə ixracın strukturu və coğrafiyasının keyfiyyət nöqteyi nəzərindən araşdırılmasına yer verilmişdir. Əsas məqsədlərdən biri Milli Prioritetlərdən irəli gələn məsələlərin milli iqtisadiyyatımızın gələcəyi üçün əhəmiyyəti müəyyən etməkdir.

***Metodologiya*** - tədqiqat və araşdırma prosesində müqayisə, təhlil və sintez metodlarından istifadə edilmişdir. Həmçinin, tətqiqatın nəzəri-metodoloji əsaslarını induksiya və deduksiya, iqtisadi-riyazi statistika metodları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar,  Nazirlər Kabinetinin aktları və digər normativ-hüquqi aktlar təşkil edir.

***Tədqiqatın nəticəsi*** - Azərbaycan Respubliaksında iqtisadiyyatın şaxələndirilməsinin mövcud vəziyyəti və inkişaf tendensiyası öyrənilmişdir. Müstəqil Azərbaycan Respublikasının milli iqtisadiyyaytının qeyri-neft sektoru hesabına inkişaf etdirilməsi, regional və beynəlxalq bazarlarda rəqabətədavamlı məhsullarla çıxış etməsinə imkan verən mühitin və sektorların yaradılması istiqamətində geniş statistik həllər təqdim edilmişdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən irəli gələn məsələlərin həll edilməsi və dəyişən dünyanın yeni çağırışlarına cavab verən dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində vacib məlumatlar verilmişdir.

***Açar sözlər:*** *makroiqtisadi sabitlik, rəqabətyönümlü şaxələndirmə, iqtisadiyyatın dayanıqlılığı, rəqabətədavamlı sənayeləşmə*

doi.org/10.61764/lasr.2.2024. 117-125

**Giriş**

Rəqabət müəyyən bir və ya eyni bir məqsədə və nail olunmasında ayrı-ayrı subyektlərin mübarizəsi istiqamətində fəaliyyəti başa düşülür. Azad rəqabət isə müxtəlif fərdlərin və firmaların təsərrüfat fəaliyyətlərini qaydaya salan və tənzimləyən hüquqi – normativ aktların və qaydaların tamamilə olmaması və ya ən aşağı səviyyədə olması kimi dərk edilir. Belə bir tamamilə sərbəstlik demək olar ki, heç vaxt mövcud olmayıb və indi də mövcud deyildir.

Rəqabətə əsaslanan sistem dedikdə elə mühit başa düşülür ki, burada özəl iqtisadi fəaliyyətin hüquqi əsası şəxsiyyətin sərbəst seçiminə, xüsusi mülkiyyətin əsas rol oynmasına və kommersiya əməliyyatlarının maddi və formal məzmununun müəyyən edilməsində dövlətin miniml səviyyədə iştirakına əsaslanır. İqtisadiyyatın rəqabətədavamlı və şaxələndirilmiş xarakterə malik olması, onun eyni zamanda gözlənilməz situasiyalara qarşı davam gətirı bilməsi ilə müəyyən olunur. İqtisadiyyatın dayanıqlı inkişafı və bu tendensiyanın son illərdə daha da aktuallaşması ölkə iqtisadiyyatının iqtisadi təlatümlərə hazır olması, iqtisadi inkişafın davamlı templərə əsaslanması ilə bağlıdır. Büdcə xərclərinin səmərəliliyinin daha da artırılması və optimallaşdırılması, iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi, neft-qaz sektorundan asılı olmayan sahələrdə dinamik iqtisadi artıma nail olunması ölkə iqtisadiyyatının dayanıqlılığını təmin edən əsas iqtisadi amillər kimi özünü biruzə verir.

**Materiallar və metodlar**

Əsas məlumat mənbələri kimi Milli Prioritetlər, Dövlət Statistika Komitəsinin hazırladığı hesabatlar, bu sahədə qəbul edilən normativ-hüquqi aktlar, o cümlədən beynəlxalq təşkilatların tərtib etdikləri sənədləri qeyd etnək olar. Tədqiqat işinin aparılması və ərsəyə gəlməsi üçün ayrı-ayrı dövlət orqanlarının rəsmi internet səhifələrinə istinadlar edilmiş, həmin məlumatlar əsasında cədvəllər və digər materiallar hazırlanmışdır. Dayanıqlı iqtisadiyyat günümüzdə ən çox istifadə edlən və tez-tez rast gəlinən ifadədir. Bu isə təsadüfi deyildir. Günümüzdə baş verən müxtəlif böhranlar, pandemiya halları, təbii fəlakətlər dövlətləri öz gələcək strategiyalarını qurarkən gözlənilməz hallara qarşı daha tədbirli hərəkət etmələrini labüd edir. Məhz tədqiqat işində BMT-nin "Gündəlik-2030"la müəyyən edilmiş qlobal məqsəd və hədəflərinə toxunulmuş, bu sənədin bəşəriyyət və ölkəmzin gələcəyi üçün nə dərəcə vacib olduğu əks edilmişdir.

Tədiqat işində işğaldan azad olunmuş ərazilərimzin ölkə iqtisadiyyatına reinteqrasiyasına yer ayrılmış, Qarabağda həyata keçirilən genişmiqyaslı tikinti və quruculuq işlərinin ölkə iqtisadiyyatının strateji dövrdə inkişafına verəcəyi töhfələr diqqətə çatdırılmışdır.

**Müzakirə**

A.Smitin təbiri ilə desək bir millətin rifah səviyyəsi təkcə yığılan qızıl və gümüşün miqdarı ilə ölçülmür. Ona daha çox həmin millətin istehsal etdiyi məhsul və xidmətlərin həcmi təsir göstərir. Bu mənada «rəqabətqabiliyyətli iqtisadiyyat», «iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti», "rəqbətəəsaslanan iqtisadi struktur" kimi anlayışlar yüksək rifah əldə etmiş ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsi siyasətinin əsasını təşkil etmişdir.

Makroiqtisadi nəzəriyyənin də əsas maraqlandığı anlayış olan ölkələrin rəqabət qabiliyyəti termini keçən əsrin ortalarından etibarən iqtisad elmində və KİV-də sürətlə yayıldı. Çox keçmədən isə geniş sosioloji müzakirələrin və elmi tədqiqat işlərinin obyektinə çevrilməyə başladı.

Yeni ixrac bazarların tapılması sahibkarlığın rəqabətqabiliyyətli inkişafının ən əsas stimulverici qüvvəsi olduğundan iqtisadiyyatda istehsalın müasirləşdirilməsinə, beynəlxalq

doi.org/10.61764/lasr.2.2024. 117-125

bazarlarda uyğun mövqelərin tapılmasına şərait yaratmalıdır. Məhz bu baxımından rəqabət qabiliyyətlili anlayışına cari və perspektiv konteksdən baxmaq lazımdır. Ümumilikdə ölkə iqtisadiyatının  və ya ayrı-ayrı firmaların bir ay, rüb yaxud da il ərzində kəmiyyət və keyfiyyət yöndən rəqiblərlə rəqabət aparmaq qabiliyyəti cari rəqabət adlanır. Rəqabət qabiliyyətinin perspektiv növü isə təqribən qarşıdakı beş il müddətində beynəlxalq bazarlarda təşkilatın və iqtisadiyyatın rəqabət imkanlarının qorunması və ya gücləndirilməsi perspektivini xarakterizə edir. Bu baxımdan rəqabətin bu iki növünün - cari və prerpektiv rəqabətin diqqətdə saxlanılması dövlətin əsas məqsədləri arasında yer tutmalıdır. Bu yöndə özündə vacib meyarları cəmləşdirən islahatların həyata keçirilməsi mütləqdir. Bura administrativ, təhsil və səhiyyə sistemi, fiskal və hüquq, innovasiya infrastrukturu, maliyyə və sığorta bazarlarının inkişaf etdirilməsi və s. kimi vacib tədbirlər aid edilir.

Dünya ölkələrin beynəlxalq miqyasda rəqabətqabiliyyətliliyinin başlıca meyarı çoxçeşidli məhsul nomenklaturası üzrə dünya ixracında xüsusi çəkisi, daha dəqiq qeyd etsək ixracının keyfiyyəti heasb edilir. Bir ölkənin məhsulu o halda yüksək rəqabətqabiliyyətliliyə malik olur ki, onun ərsəyə gəlməsi daha aşağı maddiyata əsaslanmaqla yanaşı, həmçinin keyfiyyət və dizayn cəhətdən  də istehlakçıların tələblərinə cavab versin. Məsələyə daha müasir yöndən yanaşasaq o həm də dayanıqlı iqtisadiyyat nöqteyi-nəzərindən beynəlaxalq miqyasda qəbul edilmiş istehsal və ekoloji standartlara da uyğun olmalıdır. Aydındır ki, bütün bu normalara cavab verə bilən və yüksək rəqabət imkanlarına malik hər bir məhsul ideal məhsul hesab edilmir. Mövcud rəqabət mühitində  bu və ya digər ölkən qazandığı  üstünlüklərdən istifadə edərək digərlərindən irəli çıxır. Beləliklə, daim rəqabət mübarizəsində olan ölkələr istehsal olunan məhsulları ilk növbədə regional, daha geniş perspektivdə isə dünya bazarında irəlilətməklə, milli iqtisadi sistemin rəqabət potensialını relallaşdırmış və möhkəmlətmiş olurlar [4, s.52].

Bu gün sənayeləşmənin reallaşması məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilir. Onlardan biri də qeyd etdiyimiz kimi, sənaye parklarının yaradılması və regionlarda dayanıqlı sənaye potensialının gücləndirilməsidir. Sənaye zonalarında tətbiq edilən yeni idarəetmə və istehsal texnologiyaları hesabına qeyri- ənənəvi hesab olunan yeni növ məhsulların istehsalında əhəmiyyətli irəliləyişin əldə olunması gözlənilir.

Rəqabət aparmaq xüsusiyyətlərinə malik milli iqtisadi sistem dedikdə istehsal və maddi resursların elə səmərəli və məqsədyönlü istifadəsi başa düşülür ki, son məhsullar və xidmətlər təkcə beynəlxalq bazarlarda mövcud olan tələbləri ödəsin, həm də yeni tələb yarada bilsin. Uzunmüddətli perspektivdə rəqabətqabiliyyətlilik ölkələrin xarici bazarlarda cari mövqeləri ilə məhdudlaşmır. Nəzərə almaq lazımdır ki, məhz onlar iqtisadi sistemlər müqayisəli üstünlüyə malik olurlar ki, bununla nail olduqları inkişaf səviyyəsini qoruyur və onun yeni şəraitə uyğunlaşdırılmasının təmin edilməsi üçün dəqiq mexanizmlər hazırlayırlar.

Milli iqtisadiyyatın digər ölkələrlə rəqabət aparması üçün iki əsas tələb ödənilməlidir.  Bunlar qiymət və keyfiyyət ünsürləridir. Bu iki amil üzrə tarazlıq halını qorumaq və istənilən nəticəyə çatmaq üçün istehsal həlqəsinə diqqət yetirmək lazımdır. Digər tərəfdən milli iqtisadi sistemin rəqabətə uyğunlaşması onun sosial səmərə imkanları ilə müəyyən edilir [8, s.221].

Əsas məsələ konkret bir sənaye sahəsi, məhsul və xidmət, firma və ümumən fərqli sahələrdə təşəkkül tapan istehsal prosesinin mövcudluğunda deyil. Vacib cəhət ayrı-ayrı sahələrin şaxələndirilmiş mənzərəsinin yaradılması və bu sahələrdə istehsal olunana məhsulun rəqabətə tab  gətirməsidir. Bu onu ifadə edir ki, milli iqtisadi sistemin uzunmüddətli inkişafı və artımı üçün ən təkmil və rəqabətçi elementləri seçmək məcburiyyətindəyik. Məhz bu məqsədə iqtisadi şaxələndirmə siyasəti ilə nail olmaq

mümkündür.

Müasir milli iqtisadiyyatlar qapalı olmayıb, qalan dünya ölkələri ilə idxal – ixrac münasibətlərində olurlar. Ölkəmiz üçün prioritet məsələlərdən biri rəqabətcil ixrac siyasətinin həyata keçirilməsidir.

İxracın şaxələndirilməsi həm firma, həm də dövlət səviyyəsində ixrac edilən əmtəələrin sayı və çeşidinin artmasına səbəb olan iqtisadi prosesi, yeni rəqabətəyönlü ixrac bazarlarına çıxışı, yeni imkanların reallaşdırılmasını özündə ehtiva edir. İxracla bağlı risklərin şaxələndirilməsində rəqabətli alətlərin investisiyalaşdırılması mexanizminin yaradılması həlledici rol oynayır. Belə ki, ixrac kanallarının fəaliyyətində problem yaranarsa, digər sahələrdə mövcud investisiyalar dövriyyəyə daxil olur və bununla da kapitalın iqtisadiyyatın ayrı-ayrı sahələri arasında səmərəli axınına nail olunur [6, s.431].

Xarici ticarətdə ən böyük həcmli azalma cədvəldən göründüyü kimi 2020-ci ildə olmuşdur. 2019-cu ildə 20 milyard dollara yaxınlaşan xarici ticarət həcmi 2020-ci ildə 12,6 milyard dollara qədər geriləmişdir. Xarici ticarətin həcmində ən böyük dəyişiklik uzaq xarici dövlətlərlə olmuşdur.

**Cədvəl 1. Tədiyə balansı metodologiyasına əsasən Azərbaycan Respublikasının xarici ticarəti, min ABŞ dolları**

| Tarix | Cəmi | Əvvəlki ilin müvafiq dövrünə nisbətən dəyişmə, %-lə | Uzaq xarici dövlətlərə | Əvvəlki ilin müvafiq dövrünə nisbətən dəyişmə, %-lə | MDB dövlətlərinə | Əvvəlki ilin müvafiq dövrünə nisbətən dəyişmə, %-lə |
|---|---|---|---|---|---|---|
| 2017 | 15.152.059 | 114,7 | 14.089.782 | 112,4 | 1.062.277 | 157,8 |
| 2018 | 20.793.769 | 137,2 | 19.660.046 | 139,5 | 1.133.723 | 106,7 |
| 2019 | 19.868.261 | 95,5 | 18.640.074 | 94,8 | 1.228.187 | 108,3 |
| 2020 | 12.588.158 | 63,4 | 11.361.019 | 60,9 | 1.227.139 | 99,9 |
| 2021 | 21.692.281 | 172,3 | 19.889.469 | 175,1 | 1.802.812 | 146,9 |
| 2022 | 42.206.696 | 194,6 | 40.706.447 | 204,7 | 1.500.249 | 83,2 |
| 2023 | 29.202.114 | 69,2 | 27.586.297 | 67,8 | 1.615.817 | 107,7 |

*Mənbə:* Dövlət Statistika Komitəsi

Belə ki, bu dövlətlərlə 2021-ci ildə 21,7 milyarada yaxın olan müvafiq göstərici, 2022-ci ildə artaraq 42,2 milyard dolları ötmüşdür.

Şaxələndirmənin digər əsas məqsədləri ixracın məhdud sayda coğrafi bölgüsündən asılılığın azaldılmasından və həmin bazarlarda mövcud olan gərgin rəqabət mühitindən yayınılmasından ibarətdir. Belə olan təqdirdə şaxələndirmə rəqabətə əsaslanan ixrac imkanlarını genişləndirməklə yanaşı, həm də ölkədaxili resurs və xidmətlərlə bağlı münasibətlərin yaxşılaşdırılması məqsədini təmin edə bilər [3, s.67].

**Cədvəl 2. İxracın coğrafi quruluşu (min ABŞ dolları)**

| Coğrafi regionlar | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Avropa | 11.924.314,1 | 11.811.698,7 | 8.251.657,5 | 15.464.635,8 | 27.730.086,7 |
| Asiya | 6.371.753,6 | 7.525.401,5 | 5.047.191,2 | 5.693.887,6 | 9.594.260,4 |
| Amerika | 999.639,6 | 168.420,8 | 38.728,1 | 369.454,8 | 123.016,9 |
| Afrika | 192.801,1 | 89.482,8 | 324.254,5 | 658.580,1 | 559.988,3 |
| Okeaniya | 559,8 | 40.199,0 | 70.806,0 | 21.416,5 | 139.277,4 |

*Mənbə:* Dövlət Statistika Komitəsi

doi.org/10.61764/lasr.2.2024. 117-125

Cədvəldən göründüyü kimi, ölkəmizin ixracının coğrafi quruluşunda Avropa ölkələri üstünlük təşkil edir. Əgər 2018-ci ildə Avropa ölkələrinə ixracımız təxminən 12 milyard ABŞ dolları dəyərində olmuşdursa, 2022-ci ildə icracımız 28 milyard dollara yaxınlaşmışdır. Asiya ölkələrinə ixracın həcmi 2021-ci ildə 5.7 milyard dollar dəyərində olmuşdur, 2022-ci ildə bu göstərici 9,6 milyard dollara yaxınlaşmışdır. Azalma Amerika regionu üzrə müşahidə edilmişdir. Belə ki, sözügedən regiona ixracımız 2021 –ci ildə ixrac 370 milyon dollara yaxın olmuşdursa, 2022-ci ildə 123 milyon dollardan bir qədər çox olmuşdur. Ölkəmizin ixracında ən yüksək artım Okeaniya ölkələri ilə müşahidə edilir. Cədvəldən göründüyü kimi 2018 ildə ixracımız təxminən 560 min dollara bərabər olmuşdursa, 2021-ci ildə 21 milyon dollardan çox olmuş. 2022-ci ildə isə müvafiq göstərici 140 milyon dollara qədər artmışdır.

Əlamətdardır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2024-cü ilin yanvar ayının 23-də fərman imzalamışdır. Fərman «Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimilənməsini nəzər tutur. Azərbaycan Respublikasının yeni təsdiq edilmiş Rəqabət Məcəlləsi çox böyük əhəmiyyətə malik olmaq 12 fəsildən və 84 maddədən ibarətdir. Rəqabət Məcəlləsinin qəbulu və tətbiqi ölkəmizdə təsərrüfat subyektləri arasında rəqabət mühitini və azad sahibkarlığı inkişaf etdirməklə, həm iqtisadi fəaliyyətin daha da canlandırılması, həm də istehlakçıların rifahının yüksəldilməsini, əmtəə və xidmətlərin keyfiyyətini təmin edəcəkdir.

Dünya iqtisadi sistemində rəqabət qlobal mübarizədə üstünlüyə nail olmaq, onu qoruyub saxlamaq və ölkənin regional və beynəlxalq imicini yüksəltmək məqsədlərini nəzərdə tutur. Məhz, rəqəmsal iqtisadiyyat istehsal amillərindən səmərəli istifadəni və istehsal prosesinin müasirləşdirilməsini sürətləndirməklə ölkə iqtisadiyyatının strukturunda transformasiyasını təmin edir.

Təsdiqlənmiş Rəqabət Məcəlləsinin əks etdirdiyi müddəalar onu göstərir ki, iqtisadiyyatın şaxələndirilməsi imkanlarının yüksəldilməsi makroiqtisadi dayanıqlığın qorunması, monetar və büdcə-vergi siyasətinin təsirlərinin gücləndirilməsi, bazarın biznes konyukturasının yaxşılaşdırılması və özəl sektorun dəstəklənməsi, maliyyə və sığorta xidmətlərinin keyfiyyətinin tələblərə uyğunlaşdırılması istiqamətləri ilə sıx bağlıdır [2].

Yeni dövrün tələblərinə cavab verən təsərrüfat sistemin inkişafında innovasiya fəaliyyətinin əsas məqsədi ölkə iqtisadiyyatının rəqabət imkanlarının gücləndirilməsi və beynəlxalq iqtisadi münasibətlər sisteminə effektiv inteqrasiyası ilə yanaşı, həm də uzunmüddətli dövrdə dinamik xasssəyə malik sosial-iqtisadi sferanın dayanıqlılığını təmin etməkdən ibarətdir. Bunlara ölkənin sahib olduğu və gizli qalan iqtisadi potensialının aşkar edilməsi və bu potensialın maksimum səviyyədə reallaşdırılması, həmçinin neft-qaz sektorundan asılı olmayan digər sahələrin inkişaf etdirilməsi (neft-qaz resurslarından asılı olmayan innovativ və çevik Azərbaycan iqtisadiyyatının), hər bir iqtisadi rayonun sahib olduğu potensialdan mümkün qədər tam və səmərəli istifadə və mövcud imkanlar daxilində inkişafının tarazlaşdırılması, məşğulluğu əhəmiyyətli səviyyədə təmin edəcək sayda yeni iş yerlərinin yaradılmasına dəstək göstərilməsi, sahibkarlıq təşəbbüslərinin stimullaşdırılması, əhaliyə göstərilən sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin daim diqqətdə saxlanılması, yoxsulluğun daha da azaldılması kimi hədəfləri göstərmək olar [6, s.25].

2 fevral 2021-ci il tarixində ölkə prezidenti İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edildi. Milli Prioritetlər nəticəəsaslı büdcə və ortamüddətli xərclər çərçivəsi strateji idarəetmənin əsaslarını gücləndirilməsində vacib rol oynamaqdadır. Regionda formalaşan yeni reallıqlar şəraitində Qarabağın yenidən inteqrasiyası, dördüncü sənaye inqilabının tələbələri, qlobal

doi.org/10.61764/lasr.2.2024. 117-125

iqlim dəyişiklikləri ilə bağlı öhdəliklər və neft-qaz sektorundan əldə olunan gəlirlərinin azalması kimi çağırışlar dayanıqlı iqtisadiyyatın formalaşması üçün reformların olunmasını tələb edir. Ölkəmiz də postpandemiya dövründə qlobal dünyada cərəyan edən proeselər fonunda adaptasiya dövrünə uyğun postkonflikt və postpandemiya siyasətini həyata keçirir. Makroiqtisadi və fiskal çərçivənin yenidən işlənməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabətqabiliyyətliliyin artırılması üçün islahatlar həyata keçirilir. Milli Prioritetlər sırasında birinci prioritet “dayanıqlı artan rəqabətli iqtisadiyyat” hesab olunur. Bu məqsədə nail olmaq üçün aşağıdakı məqsədlərə uyğun tədbirlər görülməsi vacib əhəmiyyət kəsb edir.

Nobel mükfatı laureatı Pol Kruqmanın fikrinə görə məhsuldarlıq hər şeyi ifadə etmir, amma uzunmüddətli dövdə hər şeydir. Yaradıcı, rəqabətcil və motivasiyaedici mühitdə insan kapitalının dəyər yaradılmasında iştirakı daha yüksək səviyyədə olur. Bu mənada Azərbaycanın 2030-cu il hədəflərindən bəhs edərkən, biz həmçinin əhali artımını da nəzərdə tutmalıyıq. BMT hesablamalarına görə 2030-cu ilə qədər ölkəmizin əhalisinin 600 min nəfərə qədər artacağı gözlənilir. Həm artan əhali, həm də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarının faydalı təbii ehtiyatları, zəngin torpaq, su və əlverişli meşə fondu, turizm potensialının əsası olan mədəni –tarixi abidələri yaxın perspektivdə ölkə iqtisadiyyatının inkişafı üçün əlavə güc yaradacaq. İstər təbii resurslar, istərsə də kadrlardan effektiv istifadə üçün münbit şərait vardır [1].




**Şəkil 1. Sosial-iqtisadi inkişafın Milli Prioritetləri**
Mənbə: [1] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Rəqabət mexanizminə əsaslanan şaxələndirilmiş, müsair bazar prinsipləri ilə çalışan iqtisadiyyatın yaradılmasında, iqtisadi subyektlər arasında cərəyan edən sosial-iqtisadi münasibətlərin nizamlanmasında dövlətin operativ və strateji mövqeyi əvəz edilməzdir. Təsərrüfat subyektləri arasındakı münasibətlərdə müşahidəedilən çatışmazlıqlar olduqca təsirli rəqabət daraldıcı nəticələrə gətirib çıxardığından dövlətin tənzimləyici siyasəti ilə rəqabət mühiti arasında güclü əlaqələr yaranır.

Dayanıqlı İnkişaf Məqsədlərinə çatma yolunda fəaliyyətləri koordinasiya etmək, 2030-cu ilədək ölkəmiz üçün vacib əhəmiyyət kəsb edən qlobal məqsəd və hədəflərə uyğun olaraq milli prioritetləri və onlara aid tədbirlərin müəyyən edilməsi, Azərbaycan

doi.org/10.61764/lasr.2.2024. 117-125

Respublikasında sosial-iqtisadi prosesləri əhatə edən dövlət proqramlarının və strategiyaların sözegedən məqsədlərə uzlaşdırılması son dövrlər xüsusi əhəmiyyə kəsb etməyə başlamışdır. Bu məqsədlə ölkə prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Dayanıqlı İnkişaf Məqsədlərinə ölkə səviyyəsində nail olunması üçün monitorinq və hesabatlılıq mexanizmi müəyyənləşdirilmişdir. Bu normativ-hüquqi akt ölkəmizdə dayanıqlı əsaslara söykənən şaxələndirilmiş rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması üçün baza sənəd hesab edilməklə xüsusi əhəmiyyət kəsb etməkdədir [5, s.206].

**Tədqiqatın nəticəsi**

Müasir milli iqtisadiyyat və cəmiyyət hal-hazırda rəqəmsal transformasiya mərhələsini keçirir. Bu isə, nəinki iqtisadiyyatın ayrı-ayrı elementlərini, bütövlükdə cəmiyyət və dövlətləri dayanıqlı iqtisadi model axtarışına xüsusi diqqət yetirməyə sövq edir. Bu baxımdan Azərbaycan Respublikasında müasir sənaye komplekslərinin, habelə sənaye məhəllələrinin və texnoparkların, sənaye parklarının yaradılması qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, yerli, eləcə də xarici investisiyaları cəlb etmək baxımından həlledici əhəmiyyət daşımaqdadır. Nəticədə, bu iqtisadiyyatın şaxələdirilməsini sürətləndirməklə müasir texnoloji sahələrin inkişafına və yeni rəqabət qabiliyyətli məhsul və xidmətlər istehsalına da təkan verir.. Ölkə iqtisadiyyatının modernləşməsi özlüyündə innovativ iqtisadiyyatın yaradılmasına, həmçinin qeyri-neft ixracının artırılmasına da böyük töhfə verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Azərbaycan Respublikasinin Rəqabət Məcəlləsi. Məcəllə Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
3. Hacıyev Ş., (2011), Dövlət və bələdiyyə idarəçiliyi. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 440 s.
4. Qasımlı V.Ə., (2023), Rəqəmsal iqtisadiyyat, Bakı, Azprin nəşriyyatı, 262 s.
5. Qaısmlı V.Ə., (2022), Yaşıl iqtisadiyyat, Bakı, Azprin nəşriyyatı, 280 s.
6. Musayev.A.F., (2014), İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması, Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 184 s.
7. Şəkərəliyev A., Şəkərəliyev Q., (2016), Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, «Turxan» NPB, 536 s.
8. Vəliyev T.S., Babayev Ə.P., Meybullayev, M.X., (2001), İqtisadi Nəzəriyyə, Bakı, 224 s.


**Sagib Mammadov**

## DIVERSIFICATION POLICY IN A COMPETITIVE ECONOMY BASED ON SUSTAINABILITY

***Summary***

*In the article, analyzes were made in the direction of ensuring macroeconomic stability, accelerating the process of diversification in the national economy based on sustainability, sustainable development of the non-oil sector, further increasing the role of the fiscal, including alternative energy sector in economic development, ensuring financial stability in the country and building a competitive economy in general. Also, special attention was paid to the prospects of increasing the competitiveness of our country in the world due to the expansion and improvement*

*of the export structure, and the main directions of the strategy aimed at increasing the international competitiveness were examined. Due to the development of the non-oil sector, the development opportunities of other sectors of the economy were investigated.*

**The purpose** - The purpose of the conducted research is to reveal the directions of the formation of a sustainable competitive environment and to determine the competitive strategy in the context of the expansion of international economic relations. Considering that ensuring the diversified development of the economy is of great importance both at the state level and for companies, its importance for a sustainable public-private partnership in the future is inevitable. Another goal is to determine prospects for access to foreign markets with a wider variety of goods, taking into account the potential competitive opportunities of the domestic market with a systematic analysis of the economy. For this, the article examines the structure and geography of exports from a qualitative point of view.

**Methodology** - the methods of comparison, analysis and synthesis were used in the research and investigation process. Also, the theoretical and methodological bases of the research are induction and deduction, economic-mathematical statistical methods, decrees and orders of the President of the Republic of Azerbaijan.

**The result of the study** - the current state of diversification of the economy in the Republic of Azerbaijan and the development trend have been studied. Extensive statistical solutions have been presented in the direction of developing the national economy of the independent Republic of Azerbaijan at the expense of the non-oil sector, creating an environment and sectors that allow it to produce competitive products in regional and international markets. Important information was provided in the direction of solving the issues arising from "Azerbaijan 2030: National Priorities for socio-economic development" and building a sustainable economy that meets the new challenges of the changing world.

***Keywords:*** *macroeconomic stability, competitive diversification, economic sustainability, competitive industrialization*

**Сагиб Мамедов**

## ПОЛИТИКА ДИВЕРСИФИКАЦИИ В КОНКУРЕНТНОЙ ЭКОНОМИКЕ, ОСНОВАННОЙ НА УСТОЙЧИВОМ РАЗВИТИИ

### *Резюме*

*В статье проведен анализ в направлении обеспечения макроэкономической стабильности, ускорения процесса диверсификации национальной экономики на основе устойчивости, устойчивого развития ненефтяного сектора, дальнейшего повышения роли бюджетного, в том числе альтернативного энергетического сектора в экономическое развитие, обеспечение финансовой стабильности в стране и построение конкурентоспособной экономики в целом. Также особое внимание было уделено перспективам повышения конкурентоспособности нашей страны в мире за счет расширения и совершенствования структуры экспорта, а также рассмотрены основные направления стратегии, направленной на повышение международной конкурентоспособности. В связи с развитием ненефтяного сектора были исследованы возможности развития других отраслей экономики.*

***Цель*** – Целью проведенного исследования является раскрытие направлений формирования устойчивой конкурентной среды и определение конкурентной стратегии в условиях расширения международных экономических связей. Учитывая, что обеспечение диверсифицированного развития экономики имеет большое значение как на государственном уровне, так и для компаний, его значение для устойчивого государственно-частного партнерства в будущем неизбежно. Другая цель – определение перспектив выхода на внешние рынки с более широким ассортиментом товаров с учетом потенциальных конкурентных возможностей внутреннего рынка при систематическом анализе экономики. Для этого в

статье с качественной точки зрения рассматривается структура и география экспорта.

***Методически*** – в процессе исследования и расследования использовались методы сравнения, анализа и синтеза. Также теоретической и методологической основой исследования являются индукция и дедукция, экономико-математические статистические методы, указы и распоряжения Президента Азербайджанской Республики.

***Результаты исследования*** – изучено современное состояние диверсификации экономики в Азербайджанской Республике и тенденции развития. Представлены обширные статистические решения в направлении развития национальной экономики независимой Азербайджанской Республики за счет ненефтяного сектора, создания условий и секторов, позволяющих производить конкурентоспособную продукцию на региональных и международных рынках. Была представлена важная информация в направлении решения вопросов, вытекающих из «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития» и построения устойчивой экономики, отвечающей новым вызовам меняющегося мира.

***Ключевые слова***: *макроэкономическая стабильность, конкурентная диверсификация, экономическая устойчивость, конкурентоспособная индустриализация*